# Məmməd Səid Ordubadinin həyat və yaradıcılığının əsas tarixləri

- *Görkəmli nasir, şair, dramaturq, jurnalist, tərcüməçi, Azərbaycanın əməkdar incəsənət xadimi Məmməd Səid Ordubadi 24 mart 1872-ci ildə Ordubad şəhərində şair Fəqir Ordubadinin ailəsində anadan olub.*

- *1901 - On dörd yaşından ipək fabrikində çalışıb.*

- *1903 - Cəhalət və nadanlıq əleyhinə yazdığı "Ədəbiyyat" adlı ilk mətbu şeiri Tiflisdə çıxan "Şərqi-Rus" qəzetinin 13 iyul tarixli 31-ci sayında dərc olunub.*

- *1905 - İnqalabından sonra mətbuat səhifələrində M.S.Ordubadi imzasına tez-tez rast gəlmək olur.*

- *1906 - Tiflisdə "Qəflət" adlı ilk kitabı işıq üzü görüb.*

- *Ordubadinin "Politika aləmindən" adlı felyetonu "Molla Nəsrəddin" jurnalının 9-cu sayında çap edilib, beləliklə, o, jurnalın əsas əməkdaşlarından biri olmuşdur.*

- *1907 - M.S.Ordubadi Culfaya köçür. Culfaya köçməsinə onun ədəbi fəaliyyəti səbəb olur.*

- *"Vətən və hürriyyət" adlı şeir kitabı çap edilib.*

- *1908 - "İki çocuğun Avropaya səyahəti" adlı romanı çap olunub.*

- *1910 - "Baği-şah, yaxud Tehran faciəsi", "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" pyeslərini də çap etdirib.*

- *1911 - Bakıda milyonçu Murtuza Muxtarovun maddi köməkliyi ilə "Səda" mətbəəsində "Qanlı sənələr, 1908" adlı kitabı nəşr edilir.*

- *1914 - Ədib həbsə alınaraq, Saritsin şəhərinə sürgün edilir.*

- *1914 - "Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngiməab" romanını çap etdirib.*

- ***1914 - Bakıda ədibin "Bədbəxt milyonçu" və "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" əsərləri çapdan çıxır, daha sonra "Babayi-Əmir", "Tuti", "Qardaş köməyi" və s. jurnal və qəzetlərin səhifələrində şeir və felyetonları dərc olunur.***

- ***1917 - Ordubadi fevral inqilabı nəticəsində sürgündən azad olur.***

- ***1918 - Kommunist partiyası sıralarına daxil olan yazıçı Həştərxanda çalışan Azərbayçan bolşeviklərinin dəvəti ilə Həştərxana gələrək, orada "Hümmət" qəzetində əməkdaşlıq edir.***

- ***1920 - Ordubadi XI ordunun sırasında Dağıstana gəlir, orada mətbəələrin milliləşdirilməsində, poliqrafiya bazasının yaradılmasında fəal iştirak edir, "Qırmızı Dağıstan" qəzetini nəşr etdirir, sonra isə Azərbaycana gəlir.-***

- ***Bakıya gələrək, "Əxbar" qəzeti redaktorunun müavini, bir qədər sonra isə redaktoru olub.***

- ***"Sabotajniklər", "Dinçilər", "Oktyabr inqilabı" və başqa pyesləri müvəffəqiyyətlə tamaşaya qoyulur.***

- ***1925 -"Analıq" (qadınların həyatından bəhs eddən şeirlər) kitabı çap olunub.***

- ***1925–1928 -"Yeni yol" qəzetinin redaktoru, bir müddət "Molla Nəsrəddin" jurnalının müdiri vəzifələrində işləyib.***

- ***1929 -“Mollanın yuxusu”, “Kənd alverçisi”, “Şeirlər” kitabı çap olunub.***

- ***1930 - “Mənim şeirlərim”, “Köhnə adamlar” adlı şeirlər və iki pərdəli pyes olan “Bu da bir möcüzə” adlı kitabları nəşr olunub.***

- ***1933-1948 - Dörd cildlik “Dumanlı Təbriz" romanepopeyası ilə Azərbaycan ədəbiyatında bu janrın əsasını qoyub.***

- ***Məmməd Səid Ordubadi Biblioqrafik göstəricisi tərtib edilib.***

- ***1934 - Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilib.***

- ***1935 - “Nərgiz” operasının librettosunu yazıb.***

- ***1937 - “Din əleyhinə şeirlər”adlı kitabı çap olunub.***

- ***“Koroğlu” operasının libreottosunu yazıb.***

- ***“Döyüşən şəhər” romanı işıq üzü görüb.***

- ***1938 - Azərbaycan SSR Əməkdar İncəsənət xadimi adını alıb və Ali Sovetin sədri seçilib.***

- ***1939 - “Beş manatlıq gəlin” musiqili komediyanın librettosunu yazıb.***

- ***1940 - “Gizli Bakı” tarixi romanı çap olunub.***

- ***1943 - “Ürəkçalanlar” musiqili komediyanın librettosunu yazıb.***

- ***1946-1948 - “Qılınc və qələm” romanını yazıb.***

- ***1947 - “Nizami” operasının librettosunu yazıb.***

- ***1950 - Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub.***

- ***1972 - Ədibin 100 illiyi münasibəti ilə Naxçıvanda anadan olduğu mənzildə ev muzeyi açılıb.***

- ***1979 - M.S.Ordubadinin Bakıda yaşadığı mənzil xatirə muzeyi kimi fəaliyyət göstərir.***

- ***2004-cü il 12 yanvar tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən M.S. Ordubadinin seçilmiş əsərləri oxuculara təqdim edilib.***

- ***2012-ci il 10 aprel tarixdə Məmməd Səid Ordubadinin 140 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb.***

- ***7 may 2019-cu il tarixli Qərar ilə Məmməd Səid Ordubadinin əsərləri Azərbaycan Respublikasında dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.***